QANUN № 08 (382), 2026, s.12-25

Ağayev Faiq Bahadur oğlu,
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin doktorantı
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: faig_agayev@yahoo.com
ORCID: 0000-0001-9869-8491

UOT 340.12
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.112

MÜASİR ŞƏRAİTDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *rəqəmsallaşma, rəqəmsal texnologiyalar, hüquqi tənzimləmə, hüquq münasibətləri, hüququn transformasiyası, rəqəmsal hüquqlar, rəqəmsal mühit, beynəlxalq hüquq*

Ключевые слова: *цифровизация, цифровые технологии, правовое регулирование, правоотношения, трансформация права, цифровые права, цифровая среда, международное право*

Keywords: *digitalization, digital technologies, legal regulation, legal relations, transformation of law, digital rights, digital environment, international law*

Giriş

XXI əsrdə elmi-texniki tərəqqinin sürətlənməsi və informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi cəmiyyətin inkişafının əsas istiqamətlərindən birini təşkil edən rəqəmsallaşma prosesini intensivləşdirmişdir. Rəqəmsal texnologiyaların iqtisadiyyat, dövlət idarəçiliyi, sosial münasibətlər, təhsil, səhiyyə və digər sahələrə sürətlə nüfuz etməsi ictimai münasibətlərin xarakterində əsaslı dəyişikliklərə səbəb olmuşdur. Bu proses yalnız yeni texnoloji imkanların meydana gəlməsi ilə məhdudlaşmır, eyni zamanda hüququn ənənəvi institutlarının, hüquq münasibətlərinin və hüquqi tənzimləmə mexanizmlərinin transformasiyasını şərtləndirir. Bu baxımdan rəqəmsal inqilab həm beynəlxalq, həm də milli hüquq sistemlərinin inkişafına əhəmiyyətli təsir göstərərək hüquqi tənzimləmənin yeni reallıqlara uyğunlaşdırılmasını zəruri edir.

Texnologiyanın sürətli inkişafı üstünlüklərlə yanaşı, ciddi etik, sosial və hüquqi problemləri də meydana çıxarmışdır. Rəqəmsal mühitdə şəxsi məlumatların toplanması və emalı, şəxsi həyatın toxunulmazlığı, informasiya təhlükəsizliyi, kibertəhlükələr, ifadə və informasiya azadlığı, istehlakçı hüquqlarının müdafiəsi, rəqəmsal platformaların məsuliyyəti və alqoritmik qərarların hüquqi nəticələri kimi məsələlər xüsusi aktuallıq kəsb edir.

Hazırda rəqəmsal texnologiyaların hüquqi aspektlərinə dair müxtəlif elmi yanaşmalar mövcud olsa da, bu sahədə kompleks və vahid nəzəri-metodoloji yanaşmanın tam formalaşdığını söyləmək çətindir. Bu səbəbdən rəqəmsal texnologiyalar və hüquq münasibətləri arasındakı qarşılıqlı əlaqənin araşdırılması müasir hüquq elminin aktual istiqamətlərindən biri kimi çıxış edir.

Rəqəmsallaşma nəticəsində formalaşan yeni hüquqi reallıqlardan biri də "rəqəmsal hüquq"

anlayışının meydana çıxmasıdır. Rəqəmsal hüququn ayrıca hüquq sahəsi, kompleks hüquqi kateqoriya və ya müxtəlif hüquq sahələrinin rəqəmsal münasibətlərə tətbiqini ifadə edən yanaşma kimi qiymətləndirilməsi elmi müzakirələrin əsas istiqamətlərindən birini təşkil edir. Bununla yanaşı, rəqəmsal mühitdə insan hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı formalaşan "rəqəmsal hüquqlar" konsepsiyası da xüsusi əhəmiyyət daşıyır. Bu konsepsiya ənənəvi hüquq və azadlıqların rəqəmsal mühitdə təmin edilməsini, habelə texnoloji inkişafın yaratdığı yeni hüquqi tələblərin nəzərə alınmasını nəzərdə tutur.

Problemin digər mühüm aspekti rəqəmsal texnologiyaların beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlıdır. Rəqəmsal mühitin sərhədlərarası xarakter daşıması milli hüquqi mexanizmlərlə yanaşı, beynəlxalq hüquqi əməkdaşlığın və vahid yanaşmaların formalaşdırılmasını zəruri edir.

Bu baxımdan məqalənin məqsədi rəqəmsal texnologiyaların mahiyyətini və müasir cəmiyyətin transformasiyasındakı rolunu müəyyənləşdirmək, onların hüquqa və hüquq münasibətlərinə təsirini araşdırmaq, rəqəmsallaşma şəraitində hüququn transformasiyasının əsas xüsusiyyətlərini müəyyən etmək, "rəqəmsal hüquq" və "rəqəmsal hüquqlar" konsepsiyalarını təhlil etmək, habelə rəqəmsal texnologiyaların hüquqi tənzimlənməsinin zəruriliyini və beynəlxalq hüquqi tənzimləmənin əsas xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir.

Tədqiqatın metodoloji əsasını hüquq elminin ümumi və xüsusi elmi metodları (sistemli yanaşma, formal-hüquqi, analitik təhlil, məntiqi təhlil və s.) təşkil edir.

1. Rəqəmsal texnologiyaların mahiyyəti və müasir cəmiyyətin transformasiyasında rolu

Müasir həyatı cəmiyyətin bütün sahələrində geniş tətbiq olunan rəqəmsal texnologiyalar olmadan təsəvvür etmək mümkün deyil. Əgər əvvəlki iki əsr sənayenin sürətli inkişafı mərhələləri olmuşdursa, XXI əsri inamla informasiya texnologiyalarının çiçəklənməsi dövrü adlandırmaq olar [16, s.287-292]. Bu proses yalnız texniki vasitələrin yenilənməsi ilə məhdudlaşmır, eyni zamanda iqtisadi, sosial, idarəetmə və hüquqi münasibətlərin mahiyyətinə də təsir göstərərək, cəmiyyətin fəaliyyət mexanizmlərində fundamental dəyişikliklərə səbəb olur.

Son bir neçə onillik ərzində kommunikasiya əlaqələri, informasiyanın əldə olunma sürəti və insanların davranış tərzi sürətlə dəyişmişdir. İnformasiyanın yaradılması, ötürülməsi, emalı və saxlanılması imkanlarının genişlənməsi nəticəsində əvvəllər zaman və məkan baxımından məhdud olan bir sıra fəaliyyətlər artıq rəqəmsal mühitdə daha sürətli və əlçatan şəkildə həyata keçirilir. Bir çox tədqiqatçılar hesab edirlər ki, rəqəmsal texnologiyalar bundan sonra da həndəsi silsilə üzrə inkişaf etməyə davam edəcəkdir [17].

Elmi-texniki tərəqqinin dövlətlərin, cəmiyyətlərin və ayrı-ayrı şəxslərin inkişafına ən güclü təsir göstərən nəticələrindən biri texnologiyalardır. BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) texnologiyanı müəyyən məhsulun istehsalı, konkret istehsal prosesinin həyata keçirilməsi və ya xidmətlərin göstərilməsi üçün zəruri olan texniki biliklər məcmusu kimi xarakterizə edir.

Texnologiyaların inkişafı ilə informasiya və kommunikasiya proseslərinin də tədricən yeni texnoloji əsaslara keçməsi informasiya texnologiyalarının formalaşmasına və geniş yayılmasına səbəb olmuşdur. Bu baxımdan rəqəmsal texnologiyalar informasiya ilə işləmə imkanlarının yeni mərhələsini ifadə edir.

İnformasiya texnologiyalarının inkişafı çərçivəsində məlumatların yaradılması, toplanması, emalı, saxlanılması və ötürülməsi üçün müxtəlif texnoloji vasitələr formalaşmışdır. Bu vasitələrin rəqəmsal əsasda inkişafı isə informasiyanın emalı və istifadəsində yeni imkanlar yaratmışdır.

Ümumiyyətlə, müasir texnologiyalar içərisində bütövlükdə informasiya texnologiyaları, xüsusən də rəqəmsal texnologiyalar xüsusi yer tutur. Rəqəmsal texnologiyalar informasiya tex-

nologiyalarının bir qrupunu və rəqəmsallaşma prosesinin əsasını təşkil edirlər.

İnformasiya texnologiyaları məlumatın təqdim olunma formasına görə analoq və rəqəmsal texnologiyalara ayrılır. Müasir dövrdə isə informasiyanın emalı, ötürülməsi və saxlanılmasında əsasən rəqəmsal texnologiyalar üstünlük təşkil edir və onların tətbiq dairəsi sürətlə genişlənməkdədir. Rəqəmsal texnologiyalar rəqəmsal məlumatların və kompüter texnologiyalarının istifadəsinə əsaslanan innovativ alətlər, sistemlər və tətbiqlər toplusudur [14, 85-90]. Rəqəmsal texnologiyalar məlumatların (qrafik, mətn, video, audio) rəqəmsal formatlarda (0 və 1) emalını, saxlanılmasını və paylaşılmasını daha sürətli və effektiv şəkildə həyata keçirir [4,s.50-55]. Rəqəmsal texnologiyaların bu xüsusiyyətləri onların yalnız informasiyanın emalı vasitəsi kimi deyil, həm də müxtəlif fəaliyyət sahələrində yeni qarşılıqlı əlaqə və fəaliyyət formalarının yaranmasını təmin edən vasitə kimi çıxış etməsinə imkan verir. Beləliklə, rəqəmsal texnologiyaların yayılması ilə onların tətbiq olunduğu sahələrdə mövcud proseslərin dəyişməsi və yeni fəaliyyət formalarının meydana çıxması müşahidə olunur.

Son zamanlar rəqəmsal texnologiyalardan geniş istifədə zaman və məkan məhdudiyyətlərini aradan qaldırmaqla yanaşı, informasiyaların daha tez və asanlıqla əldə olunmasını təmin etmişdir [2,s.257-262].

Rəqəmsal texnologiyaların sürətli inkişafı və müxtəlif sahələrə nüfuz etməsi daha geniş məzmun daşıyan rəqəmsallaşma prosesinin formalaşmasına gətirib çıxarmışdır. Rəqəmsallaşma bu baxımdan ayrı-ayrı məlumatların rəqəmsal formaya keçirilməsindən daha geniş proses olmaqla, texnologiyaların müxtəlif ictimai münasibətlərə və fəaliyyət sahələrinə inteqrasiyasını əhatə edir.

Son on il ərzində texnologiyanın sürətli inkişafı nəticəsində sənaye sahəsində baş verən radikal dəyişikliklərdən biri "4-cü sənaye inqilabı"nın baş verməsi və bəşər cəmiyyətinin bu prosesə transformasiyası hesab olunur. Artıq qədəm qoyduğumuz dördüncü sənaye inqilabında dəyişikliklərin xüsusiyyəti o qədər fundamentaldır ki, dünya tarixi həm böyük imkanlar, həm də potensial təhlükələrlə dolu olan buna bənzər bir dövrlə hələ qarşılaşmayıb. Dördüncü sənaye inqilabını digər sənaye inqilablarından fərqləndirən mühüm xüsusiyyyət məhz insanların müdaxiləsi olmadan özüdüşünə, problemləri təsbit və təhlil edən bilən sistemlərin yaradılması və onların inteqrasiyasıdır. Bu sənaye inqilabını fərqləndirən digər bir cəhət onun sürəti, əhatə dairəsi və sistematik effekti hesab olunur [3,s.61-71]. Rəqəmsal texnologiyaların inkişafı və onların müxtəlif sahələrə inteqrasiyası dördüncü sənaye inqilabının xarakterik xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Bu proses nəticəsində rəqəmsal texnologiyalar təkcə sənaye və iqtisadi fəaliyyətin deyil, cəmiyyətin bütövlükdə fəaliyyət və inkişaf xüsusiyyətlərinin dəyişməsinə təsir göstərən amilə çevrilmişdir.

Beləliklə, rəqəmsal texnologiyaların inkişafı sadəcə texniki yenilənmə prosesi deyil, cəmiyyətin fəaliyyət formalarının və ictimai münasibətlər sisteminin transformasiyasını şərtləndirən kompleks prosesdir. Onun sürəti, geniş əhatə dairəsi və sistematik təsiri rəqəmsallaşmanı müasir ictimai inkişafın əsas istiqamətlərindən birinə çevirmişdir. Məhz bu transformasiya nəticəsində ənənəvi ictimai münasibətlər yeni rəqəmsal mühitə uyğunlaşmağa başlamış, bununla da iqtisadiyyat, sosial həyat, dövlət idarəçiliyi və hüquq qarşısında yeni imkanlarla yanaşı, yeni tənzimləmə ehtiyacları da meydana çıxmışdır.

2. Rəqəmsal texnologiyaların hüquqa təsiri və hüquqi tənzimlənməsi zərurəti

2.1. Rəqəmsal texnologiyaların hüquq münasibətlərinin transformasiyasına təsiri

Rəqəmsallaşma fenomeni rəqəmsal rabitə kanallarının sürətli inkişafı və onların əsasında yeni texnologiya növlərinin yaradılması ilə əlaqədar olaraq cəmiyyətin həyatının müxtəlif sahələrinə fəal şəkildə nüfuz edir və ictimai münasibətlərin,

eləcə də bütövlükdə hüququn inkişafı üçün yeni şərait formalaşdırır. Ənənəvi hüquq münasibətləri sisteminin transformasiyası getdikcə daha aydın müşahidə olunur. Elektron mühitin texnologiyalarından və mexanizmlərindən fəal istifadə münasibətlərin tamamilə fərqli, qeyri-maddi reallıqda inkişaf etməsinə imkan yaratmışdır. Belə münasibətlərin inkişaf mühiti kimi elektron ticarət, elektron sənəd dövriyyəsi sahələri və s. göstərilə bilər. Bununla belə, tamamilə elektron mühitdə həyata keçirilən bu münasibətlər nəzəri baxımdan hələ də müstəqil hüquq münasibətləri kimi fərqləndirilmir. Rəqəmsal texnologiyaların fəal tətbiqi yalnız cəmiyyətin inkişafında mövcud tendensiyaları gücləndirmiş, faktiki mühitdə və elektron formatda həyata keçirilən hüquq münasibətlərinin fərqləndirilməsi zərurəti barədə düşünməyə əsas vermişdir [13,s.21-25].

Beləliklə, münasibətlərin rəqəmsal mühitə keçməsi onların hüquqi mahiyyətini hər zaman dəyişdirməsə də, həmin münasibətlərin yaranması, həyata keçirilməsi, sübut edilməsi və hüquqi məsuliyyətin müəyyənləşdirilməsi ilə bağlı yeni xüsusiyyətlər meydana çıxarır. Buna görə də rəqəmsallaşmanın hüquqa təsiri yalnız yeni hüquq münasibətlərinin yaranması ilə deyil, mövcud hüquq münasibətlərinin həyata keçirilmə formalarının dəyişməsi ilə də xarakterizə olunur.

2.2. Rəqəmsallaşma şəraitində hüququn transformasiyası

Müasir dövrdə rəqəmsal texnologiyalardan istifadə sahəsində münasibətlərin inkişafına təsir göstərən əsas amil artıq yalnız hüquq deyil; əksinə, məhz rəqəmsal texnologiyalar hüququn transformasiyaya uğramasını, digər tənzimləyici mexanizmlərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərməsini və özünün müxtəlif inkişaf səviyyələrində rəqəmsal texnologiyalardan istifadə etməsini zəruri edir [12, s.170-172].

T.Y. Xabriyevanın fikrincə, rəqəmsal texnologiyalar ictimai münasibətlərin və hüququn rəqəmsallaşdırılması, eləcə də yeni ictimai-iqtisadi formasiyaya keçid üçün ilkin şərtlər yaradır [18,s.85-102]. V.D. Zorkin isə göstərir ki, hazırda "ikinci modern hüququ" adlandırılan yeni hüquq formalaşır. Bu hüquq böyük verilənlər (Big Data), süni intellekt və robotlar dünyasında yaranan siyasi, iqtisadi və sosial münasibətləri tənzimləyir [8].

Bu yanaşmalar rəqəmsallaşmanın hüququn yalnız tətbiq sahəsinə deyil, həm də hüquqi düşüncənin və hüquqi tənzimləmə metodlarının inkişafına təsir etdiyini göstərir. Rəqəmsal mühitdə münasibətlərin yüksək sürətlə dəyişməsi hüquqi normaların texnoloji yeniliklərə uyğunlaşdırılmasını və hüquqi tənzimləmənin daha çevik xarakter almasını zəruri edir.

Hazırda informasiya texnologiyalarının sürətlə artan müxtəlifliyi onların vahid elmi meyarlar əsasında sistemləşdirilməsi və ümumi qəbul edilmiş təsnifatının aparılmasını zəruri edir. Belə bir təsnifat hüquqi tənzimləmənin daha ardıcıl və səmərəli qurulması üçün mühüm əhəmiyyət daşıyır. Çünki qanunvericilik texnologiyaların tətbiqi zamanı meydana çıxan bütün konkret halları ayrıca tənzimləmək imkanına malik deyil; bu, həm qanunvericiliyin inkişaf məntiqi, həm də informasiya münasibətlərinin yüksək dinamizmi ilə bağlıdır. İnformasiya texnologiyalarının ümumi əlamətlərə görə təsnif edilməsi onların növlərinin və yarımnövlərinin müəyyənləşdirilməsinə, hüquqi anlayışların dəqiqləşdirilməsinə və hüquqi tənzimləmə mexanizmlərinin sistemləşdirilməsinə şərait yaradır.

Beləliklə, rəqəmsallaşma prosesi hüququn yalnız tətbiq sahəsinə deyil, həm də hüquq düşüncəsinin və hüquqi tənzimləmə metodlarının inkişafına təsir göstərir. Rəqəmsal mühitdə münasibətlərin yüksək sürətlə dəyişməsi hüquq normalarının texnoloji yeniliklərə uyğunlaşdırılmasını və hüquqi tənzimləmənin daha çevik xarakter almasını zəruri edir. Hüquqi tənzimləmənin texnologiyanın konkret növündən daha çox onun yaratdığı hüquqi nəticələrə və risklərə istiqamətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə yanaşma sürətlə dəyişən tex-

nologiyalar şəraitində qanunvericiliyin daha uzunmüddətli və çevik tətbiq imkanlarını təmin edə bilər.

2.3. Rəqəmsal hüquq anlayışı

Xarici hüquq nəzəriyyəsində rəqəmsal hüquq dedikdə, rəqəmsal texnologiyaların tətbiqi əsasında formalaşan ictimai münasibətlərin tənzimlənməsini təmin edən hüquq normaları və institutlarının məcmusu başa düşülür. Bu münasibətlər müxtəlif hüquq sahələrinə aid olduğundan, onların vahid hüquqi tənzimetmə metodu ilə əhatə olunması mümkün deyildir. Bu baxımdan rəqəmsal hüquq insanın rəqəmsal texnologiyalar və xidmətlərlə qarşılıqlı əlaqəsindən irəli gələn münasibətləri əhatə edən, daim inkişaf edən və genişlənən kompleks hüquqi kateqoriya kimi qiymətləndirilir [7,s.71-75]. Onun əhatə dairəsinə elektron ödənişlərdən başlayaraq istehlakçı hüquqlarının müdafiəsinə qədər müxtəlif istiqamətlər daxildir.

Rəqəmsal hüququn yaranmasını IV Sənaye İnqilabı ilə sıx əlaqəli olaraq onun bir tərkib hissəsi kimi səciyyələndirmək olar. IV sənaye inqilabı ilə internetin geniş kütlələr üçün əlçatan olması, onlayn sosial platformaların sürətli inkişafı, süni intellektin müxtəlif sahələrdə, o cümlədən hüquq sferasında tətbiqinin genişlənməsi kimi texnoloji yeniliklər rəqəmsallaşma prosesinin sürətlənməsinə [5,s.41-61] və yeni mərhələyə keçməsinə səbəb olmuşdur.

Beləliklə, rəqəmsal hüquq dedikdə, tərkibində "rəqəmsal element" olan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Bu normalar ayrıca bir hüquq sahəsi yaratmır, çünki onlar hüququn bütün sahələrində mövcuddur. Bu baxımdan rəqəmsal hüququ ayrıca və müstəqil hüquq sahəsi kimi deyil, müxtəlif hüquq sahələrində rəqəmsal elementin mövcudluğu ilə səciyyələnən kompleks hüquqi tənzimləmə istiqaməti kimi qiymətləndirmək daha məqsədəuyğundur. Rəqəmsal münasibətlərin çoxşaxəli xarakteri mülki, inzibati, cinayət, əmək, vergi, beynəlxalq və digər hüquq sahələrinin normalarının bu münasibətlərin tənzimlənməsində qarşılıqlı əlaqəsini şərtləndirir.

2.4. Rəqəmsal texnologiyaların hüquqi tənzimlənməsinin zəruriliyi və təyantı

Texnologiyaların milli və qlobal inkişaf üçün strateji əhəmiyyət daşıması səbəbindən onların yalnız bazar mexanizmləri vasitəsilə tənzimlənməsi kifayət etmir. Buna görə də bazar yanaşması qanunauyğun olaraq hüquqi-tənzimləyici yanaşma ilə tamamlanır. Beynəlxalq təcrübə göstərir ki, yeni texnologiyalardan irəli gələn problemlərin tənzimlənməsi üçün qanunvericilik bazası daimi yenilənməlidir [1,s.19-28].

Rəqəmsal texnologiyaların sürətli inkişafı hüquqi tənzimləmənin qarşısında ikili vəzifə qoyur. Bir tərəfdən, innovasiyaların və texnoloji inkişafın qarşısını alan həddindən artıq məhdudlaşdırıcı yanaşmalardan çəkinmək, digər tərəfdən isə fərdlərin, cəmiyyətin və dövlətin qanuni maraqlarına mümkün zərərin qarşısını almaq lazımdır. Buna görə rəqəmsal sahədə hüquqi tənzimləmənin əsas məqsədi texnoloji inkişafı məhdudlaşdırmaq deyil, onun təhlükəsiz, məsuliyyətli və hüquq və azadlıqlara hörmət əsasında həyata keçirilməsini təmin etmək olmalıdır.

Rəqəmsal münasibətlərin yüksək dinamizmi həm də hüquqi tənzimləmənin çevikliyini zəruri edir. Daim dəyişən texnoloji mühitdə yalnız konkret texnologiyalara yönəlmiş və tez köhnələn normalardan istifadə etmək əvəzinə, ümumi hüquqi prinsipləri, məsuliyyət meyarlarını və fundamental hüquqların müdafiəsini təmin edən daha çevik mexanizmlərin formalaşdırılması əhəmiyyət daşıyır.

Bu baxımdan hüquqi tənzimləmənin əsas istiqamətləri sırasında şəxsi məlumatların və məxfiliyin qorunması, kibertəhlükəsizliyin təmin edilməsi, rəqəmsal platformaların fəaliyyətinin tənzimlənməsi, elektron müqavilə və ödənişlərin hüquqi təminatı, istehlakçı hüquqlarının müdafiəsi, süni intellektdən istifadənin yaratdığı risklərin idarə edilməsi və rəqəmsal mühitdə

fundamental hüquq və azadlıqların təmin olunması xüsusi əhəmiyyət kəsb edir.

Bununla yanaşı, rəqəmsal texnologiyaların sərhədlərarası xarakteri (rəqəmsal xidmətlərin və məlumat axınlarının dövlət sərhədlərini aşması) onların hüquqi tənzimlənməsində milli qanunvericiliklə yanaşı beynəlxalq əməkdaşlığın da əhəmiyyətini artırır.

Beləliklə, rəqəmsal sahədə hüquqi tənzimləmənin əsas məqsədi texnoloji inkişafı məhdudlaşdırmaq deyil, onun təhlükəsiz, məsuliyyətli və hüquq və azadlıqlara hörmət əsasında həyata keçirilməsini təmin etmək olmalıdır.

Daim dəyişən texnoloji mühitdə yalnız konkret texnologiyalara yönəlmiş və tez köhnələn normalardan istifadə etmək əvəzinə, ümumi hüquqi prinsipləri, məsuliyyət meyarlarını və fundamental hüquqların müdafiəsini təmin edən daha çevik mexanizmlərin formalaşdırılması əhəmiyyət daşıyır.

3. Rəqəmsal mühitdə hüquqların təminatı və "rəqəmsal hüquqlar" konsepsiyası

3.1. Rəqəmsal mühitdə insan hüquq və azadlıqlarının təmin edilməsi

Rəqəmsallaşma insan hüquqları kimi mühüm sosial-hüquqi instituta da təsirsiz ötüşməmişdir. Rəqəmsal texnologiyaların inkişafı insanın şəxsi, sosial, iqtisadi, siyasi və mədəni hüquqlarının həyata keçirilməsi üçün yeni imkanlar açaraq, bu hüquqlardan istifadənin daha əlçatan, operativ və səmərəli mexanizmlərinin formalaşmasına şərait yaradır.

Rəqəmsal texnologiyalar dövlət orqanları, vətəndaşlar və vətəndaş cəmiyyəti institutları arasında qarşılıqlı əlaqənin daha operativ və səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradır. Bu isə insan hüquqlarının müdafiəsi və təmin edilməsi sahəsində dövlət siyasətinin daha effektiv həyata keçirilməsinə, şəffaflığın, hesabatlılığın və vətəndaş iştirakının güclənməsinə xidmət edir. Rəqəmsal texnologiyalar mümkün hüquq pozuntularının vaxtında aşkar edilməsinə, onların davamlı monitorinqinin aparılmasına və risklərin əvvəlcədən müəyyən edilməsinə imkan yaradır. Bu isə hüquq pozuntularının qarşısının alınması məqsədilə operativ və effektiv qabaqlayıcı tədbirlərin görülməsinə şərait yaradır.

Hüquqların getdikcə daha çox rəqəmsal platformalar və informasiya sistemləri vasitəsilə reallaşması hüquqi təminatın yalnız normativ çərçivə ilə məhdudlaşmadığını, texnoloji mühitin xüsusiyyətlərindən də asılı olduğunu göstərir [24]. Rəqəmsal texnologiyaların və süni intellekt sistemlərinin tətbiqi konstitusion hüquqların məzmunundan daha çox onların təmin edilmə mexanizmlərini dəyişir. Bu şəraitdə hüquqların qorunması yalnız normativ tənzimləmə ilə məhdudlaşa bilməz və onların həyata keçirildiyi texnoloji mühit də hüquqi qiymətləndirmənin predmetinə çevrilir [6, s.12-18].

Beləliklə, rəqəmsal mühitdə insan hüquqlarının təmin edilməsi iki qarşılıqlı istiqaməti əhatə edir: bir tərəfdən, rəqəmsal texnologiyalar hüquqlardan istifadənin yeni imkanlarını yaradır, digər tərəfdən isə həmin texnologiyaların yaratdığı yeni risklər hüquqların müdafiəsi üçün əlavə hüquqi təminatların formalaşdırılmasını tələb edir.

3.2. "Rəqəmsal hüquqlar" konsepsiyası

Elmi ədəbiyyatda formalaşmış yanaşmaya görə, informasiya və rəqəmsallaşma sahəsində innovativ texnologiyaların inkişafı ənənəvi insan hüquqlarının yeni şəraitdə yenidən şərh edilməsini zəruri edir və onların yeni kateqoriyası olan "rəqəmsal hüquqlar"ın meydana gəlməsini şərtləndirmişdir [23,s.219-250].

İlkin mərhələdə kommunikasiya və informasiya texnologiyalarının inkişafı nəticəsində yaranan hüquqların və hüquq münasibətlərinin ifadəsi üçün həm beynəlxalq, həm də milli normayaratma təcrübəsində müxtəlif terminlərdən istifadə olunurdu. Bunlara "internetdə (kiberməkanda) insan hüquqları", "kiberhüquqlar (kiberazadlıqlar)" və "internet hüququ" kimi anlayışlar daxil

idi. Lakin zaman keçdikcə bu terminlər geniş qəbul edilməmiş, həm elmi ədəbiyyatda, həm də praktikada onların yerini daha çox "rəqəmsal hüquqlar" anlayışı tutmuşdur. Rəqəmsal hüquqlar konsepsiyası internetin XX əsrin son onilliyində geniş yayılması ilə formalaşmağa başlamışdır. Bununla belə, bu anlayışın hüquqi məzmunu və əhatə dairəsi hələ tam müəyyənləşməmiş, rəqəmsal texnologiyaların sürətli inkişafı fonunda davamlı şəkildə təkmilləşərək yeni hüquq münasibətlərini özündə ehtiva edən dinamik konsepsiya kimi inkişaf etməkdədir [20] .

Rəqəmsal hüquqlar mahiyyət etibarilə ikili xarakterə malikdir. Belə ki, rəqəmsal hüquqlar bir tərəfdən müstəqil hüquqi tənzimetmə institutu kimi çıxış edir, digər tərəfdən isə ənənəvi fundamental insan hüquqlarının həyata keçirilməsi və təmin edilməsinin forma və vasitəsi kimi qiymətləndirilir.

Rəqəmsal hüquqların beynəlxalq hüquqi mahiyyəti onların ənənəvi insan hüquqları ilə sıx bağlı olmasında təzahür edir. Mahiyyət etibarilə rəqəmsal hüquqlar yeni, tamamilə müstəqil hüquqlar deyil, informasiya cəmiyyətinin inkişafı nəticəsində ənənəvi insan hüquq və azadlıqlarının rəqəmsal mühitdə təzahür və həyata keçirilməsi formasıdır. Bu səbəbdən onların hüquqi təminatı və müdafiəsi əsasən 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və 1966-cı il İnsan hüquqlarına dair Beynəlxalq Paktlarda təsbit olunmuş fundamental insan hüquqları normalarına əsaslanır. Bununla yanaşı, rəqəmsal texnologiyaların sürətli inkişafı nəticəsində yeni hüquqi münasibətlər və əvvəllər mövcud olmayan rəqəmsal hüquqlar meydana çıxır. Bu isə beynəlxalq hüququn daim təkmilləşdirilməsini, zərurət yarandıqda mövcud beynəlxalq müqavilələrə əlavə protokolların qəbul edilməsini və rəqəmsal hüquqların həyata keçirilməsinə beynəlxalq nəzarət mexanizmlərinin gücləndirilməsini şərtləndirir [9, s.949-962]. Bu baxımdan, BMT sistemi çərçivəsində rəqəmsal hüquqlar üzrə ixtisaslaşmış institusional mexanizmlərin yaradılması beynəlxalq hüququn gələcək inkişaf istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

Elmi ədəbiyyatda rəqəmsal hüquqların mahiyyəti və hüquqi təbiəti ilə bağlı vahid mövqe formalaşmamışdır. Tədqiqatçıların bir qismi rəqəmsal hüquqları rəqəmsal mühitə uyğunlaşdırılmış ənənəvi hüquqlar kimi qiymətləndirir. Bu yanaşmaya görə, rəqəmsal hüquqlar mahiyyət etibarilə yeni hüquq növü deyil, klassik mülki və digər fundamental hüquqların rəqəmsal müstəvidə ifadə və həyata keçirilməsi formasıdır. Onlar ənənəvi hüquqların məzmununu qoruyub saxlayır, yalnız rəqəmsal mühitin xüsusiyyətlərinə uyğun olaraq yeni tətbiq müstəvisi qazanırlar.

Digər bir qrup müəlliflər isə rəqəmsal hüquqları ənənəvi hüquqların sadəcə rəqəmsal mühitə uyğunlaşdırılmış forması kimi deyil, rəqəmsallaşmanın yaratdığı yeni ictimai münasibətlərdən irəli gələn müstəqil hüquqi kateqoriya kimi qiymətləndirirlər. Bu yanaşmaya görə, rəqəmsal texnologiyaların inkişafı nəticəsində formalaşan hüquq münasibətləri özünəməxsus xüsusiyyətlərə malik olduğundan, onların tənzimlənməsi mövcud hüquq institutları ilə məhdudlaşa bilməz. Buna görə də rəqəmsal hüquqların müstəqil hüquqi məzmuna malik yeni hüquqlar sistemi kimi tanınması zəruri hesab edilir. Məsələn, xarici elmi ədəbiyyatda üstünlük təşkil edən yanaşmaya görə, rəqəmsal hüquqlar özünəməxsus xüsusiyyətlərə (*sui generis*) malik olmaqla, ənənəvi insan hüquqlarından fərqlənən müstəqil hüquqi təbiətə sahibdir. Bu səbəbdən bir sıra müəlliflər [23,s.219-250] onları insan hüquqlarının yeni - dördüncü nəslinə aid yeni hüquqlar kateqoriyası kimi qiymətləndirirlər. Xüsusilə, bu hüquqlara internet şəbəkəsinə çıxış hüququ, məlumatların axtarılması, əldə edilməsi və ötürülməsi hüququ, rəqəmsal əsərlərdən istifadə, onların yaradılması və dərc edilməsi hüququ, anonimlik hüququ, internetdə ifadə azadlığı hüququ, eləcə də unudulmaq hüququ [11, s.231-238] aid edilir.

R.X.Davıdov göstərir ki, "rəqəmsal hüquqlar" termini internet texnologiyalarının inkişafı ilə meydana çıxmışdır. Xarici təcrübədə rəqəmsal hüquq ilkin mərhələdə ayrıca hüquq sahəsi kimi deyil, müxtəlif hüquq normalarının məcmusu kimi nəzərdən keçirilir. Alimlər hesab edirlər ki, rəqəmsal hüquqlar institutu informasiya texnologiyalarının inkişafı ilə paralel olaraq dinamik şəkildə formalaşır və təkmilləşir. Bununla əlaqədar olaraq, rəqəmsal hüquqların əhatə dairəsi intellektual mülkiyyət hüquqlarının müdafiəsindən başlayaraq, böyük həcmli məlumatların emalı zamanı informasiya təhlükəsizliyinin təmin edilməsinədək müxtəlif hüquq sahələrini əhatə edir. İnternet texnologiyalarının inkişafı ilə qanunvericilikdə yeni müddəalar və hüquq institutları meydana çıxmışdır ki, onlar bu gün fərdi məlumatların ötürülməsi və emalı sahəsinin hüquqi tənzimlənməsini təmin etməyə, həmçinin internet istifadəçilərinin informasiya təhlükəsizliyini qorumağa imkan verir [7, s.71-75].

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə rəqəmsal hüquqların hüquqi tənzimlənməsi məsələləri innovasiyalar ilə vətəndaşların əsas hüquqlarının qorunması arasında balanslaşdırılmış qarşılıqlı əlaqənin təmin edilməsi baxımından həlledici əhəmiyyət kəsb edir.

V.D.Zorkinə görə rəqəmsal insan hüquqları beynəlxalq hüquq və dövlətlərin milli qanunvericiliyi ilə təminat altına alınan universal insan hüquqlarının konkretləşdirilmiş ifadəsidir. Bununla yanaşı, dövlətin vəzifəsi vətəndaşların rəqəmsal hüquqlarını tanımaq və müxtəlif pozuntulardan müdafiə etmək, bununla da şəxsin, cəmiyyətin və dövlətin konstitusiya-hüquqi təhlükəsizliyini təmin etməkdir [8].

Xarici təcrübədə rəqəmsal hüquqların tənzimlənməsi sahəsində Böyük Britaniyanın təcrübəsi xüsusi əhəmiyyət kəsb edir. Bu ölkədə 2010-cu ildə qəbul edilmiş Digital Economy Act rəqəmsal iqtisadiyyatın inkişafı, elektron dövlət xidmətlərinin göstərilməsi, elektron ödənişlərin təhlükəsizliyi, fərdi məlumatların və müəllif hüquqlarının qorunması, eləcə də rəqəmsal mühitdə hüquq münasibətlərinin tənzimlənməsi üçün hüquqi çərçivə yaradıb. Qanuna 2017-ci ildə edilmiş dəyişikliklərlə rəqəmsal xidmətlərin göstərilməsi bağlı hüquqi mexanizmlər daha da təkmilləşdirilmişdir. Bundan əlavə, qanun məlumat mübadiləsinin təhlükəsizliyi, qanunsuz internet resurslarının məhdudlaşdırılması və ictimai maraqların qorunmasına yönəlmiş hüquqi vasitələri də ehtiva edir.

Oxşar yanaşma Fransada da tətbiq edilmişdir. 2016-cı il "Rəqəmsal Respublika haqqında" Qanun ölkənin rəqəmsal iqtisadiyyat strategiyasının hüquqi əsasını yaratmış, bununla əlaqədar rəqəmsal münasibətlərə aid əvvəlki qanunvericilik aktlarında da müvafiq dəyişikliklər edilmişdir.

ABŞ-da rəqəmsal hüquqların müdafiəsi sistemi daha inkişaf etmiş hesab olunur, çünki dövlət internet resurslarının bloklanması sahəsində daha geniş funksional imkanlara malikdir. ABŞ-ın Delaver ştatında rəqəmsal hüquqların vərəsəliyi ilə bağlı xüsusi qanun qəbul edilmişdir. Həmin qanuna əsasən, sosial şəbəkə hesabları və elektron poçt hesabları vərəsəlik qaydasında ötürülə bilər. Şəxsin vəfat etməsi və ya fəaliyyət qabiliyyətsiz hesab edilməsi halında onun hesablarına yaxın qohumları vərəsəlik hüququ əsasında çıxış əldə edə bilirlər. Oxşar qanunlar ABŞ-ın bir sıra digər ştatlarında da qəbul olunmuşdur. Bununla belə, hazırda söhbət bütün rəqəmsal əmlakın vərəsəlik qaydasında ötürülməsindən getmir. Dünyanın əksər ölkələrində isə şəxsin vəfatından sonra onun rəqəmsal qurğularına və hesablarına çıxış hüququ xitam olunur [15,s.86-89].

Almaniyada 2017-ci ildə rəqəmsal hüquqların müdafiəsi üçün xüsusi fond yaradılmışdır. Fondun əsas məqsədi rəqəmsal hüquqların qorunması sahəsində fəaliyyət göstərən subyektlər arasında əməkdaşlığın gücləndirilməsindən ibarətdir. Fondun missiyası vətəndaşların rəqəmsal hüquq-

larının pozulması hallarında məhkəmə müdafiəsi hüququnun daha səmərəli həyata keçirilməsini təmin etməkdir [7, s.71-75]. Hazırda fond müstəqil təşkilat kimi fəaliyyət göstərərək informasiya mübadiləsini əlaqələndirir və digər şəxslərin rəqəmsal hüquqlarını pozan şirkətlərə və fiziki şəxslərə qarşı aparılan məhkəmə proseslərinə dəstək verir.

Beləliklə, rəqəmsallaşma ənənəvi insan hüquqlarının məzmununa deyil, onların həyata keçirilməsi və müdafiəsi formalarına da əhəmiyyətli təsir göstərərək rəqəmsal hüquqlar anlayışının formalaşmasını şərtləndirmişdir. Rəqəmsal hüquqların hüquqi təbiəti ilə bağlı vahid elmi yanaşma mövcud deyil: onlar həm ənənəvi fundamental hüquqların rəqəmsal mühitdə təzahürü, həm də rəqəmsallaşmanın yaratdığı yeni ictimai münasibətlərdən irəli gələn müstəqil hüquqi kateqoriya kimi qiymətləndirilir. Rəqəmsal hüquqların dinamik xarakteri onların internetə çıxış, informasiya əldə etmək, anonimlik, ifadə azadlığı, şəxsi məlumatların qorunması və unudulmaq hüququ kimi yeni istiqamətlərlə genişlənməsini şərtləndirir. Bu isə mövcud hüquqi mexanizmlərin davamlı təkmilləşdirilməsini zəruri edir. BMT sistemi çərçivəsində rəqəmsal hüquqlar üzrə ixtisaslaşmış institusional mexanizmlərin yaradılması beynəlxalq hüququn gələcək inkişaf istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

4. Rəqəmsal texnologiyaların inkişafı fonunda beynəlxalq hüquqi tənzimləmənin xüsusiyyətləri

Hazırkı şəraitdə beynəlxalq hüququn dinamik inkişafına təsir göstərən əsas amillərdən biri elmi-texnoloji qloballaşmadır. Hazırda dünya biliklərin, informasiyanın, texnologiyaların, onlara dair hüquqların, innovativ təcrübələrin, eləcə də yüksək texnologiyalı məhsul və xidmətlərin yaradıldığı, dövriyyəyə buraxıldığı və qlobal miqyasda yayıldığı vahid məkana çevrilmişdir.

BMT-nin Ticarət və İnkişaf Konfransı hələ 2017-ci ildə rəqəmsallaşma sahəsinə aid əsas texnologiyaları müəyyən etmişdir. Bunlara:

- inkişaf etmiş robototexnika,
- süni intellekt,
- əşyaların İnterneti (IoT),
- bulud texnologiyaları,
- böyük verilənlər (Big Data),
- üçölçülü (3D) çap texnologiyaları və rəqəmsal ödəniş sistemləri daxildir [25]

Müasir qloballaşma şəraitində rəqəmsal texnologiyaların tətbiqindən irəli gələn ictimai münasibətlərin hüquqi tənzimlənməsi yalnız milli qanunvericilik çərçivəsində həyata keçirilə bilməz. Rəqəmsal transformasiyanın sürətlənməsi, elmi-texniki tərəqqinin intensivləşməsi və informasiya mühitinin qlobal xarakter alması nəticəsində bu sahədə yaranan münasibətlər dövlət sərhədlərini aşaraq beynəlxalq hüquqi əməkdaşlığın predmetinə çevrilmişdir. Bu baxımdan, rəqəmsal mühitin səmərəli və təhlükəsiz idarə olunması milli hüquqi mexanizmlərlə yanaşı, beynəlxalq hüquqi standartların və qarşılıqlı koordinasiyanın tətbiqini də zəruri edir.

Müasir dövrdə rəqəmsal texnologiyalar beynəlxalq münasibətlər sisteminin inkişafına əhəmiyyətli təsir göstərir. Onlar beynəlxalq əməkdaşlıq üçün yeni perspektivlər və imkanlar açmaqla yanaşı, bu əməkdaşlığın inkişafı üçün möhkəm informasiya bazası formalaşdırır.

Texnologiyaların beynəlxalq hüquqi tənzimlənməsinə və bu sahənin kompleks elmi tədqiqinə ehtiyac bir sıra obyektiv səbəblərlə şərtlənir. Bu səbəblər, ilk növbədə, müasir texnologiyaların sürətli inkişafı və geniş yayılması nəticəsində meydana çıxan ziddiyyətlərin universal və regional səviyyədə həll edilməsinin zəruriliyi ilə bağlıdır. Buraya texnologiyaların qlobal miqyasda yayılması tələbi ilə onlara dair hüquq sahiblərinin maraqları arasında, eləcə də dövlətlərin və xalqların inkişaf ehtiyacları ilə təhlükəsizliyin təmin olunması zərurəti arasın-

da mövcud olan ziddiyyətlər daxildir [22,s.194-216].

T.V.Telyatitskaya rəqəmsallaşmanın beynəlxalq hüquqi tənzimlənməsi ilə bağlı problemləri üç qrupa bölür:

1. *beynəlxalq hüquqi aktların hazırlanması ilə bağlı subyektiv problemlər* - rəqəmsal texnologiyaların hüquqi tənzimlənməsinə dair müxtəlif dövlətlərin konseptual yanaşmaları və baxışları arasında mövcud olan ziddiyyətlərdən irəli gələn çətinliklər;

2. *hazırlanmış beynəlxalq hüquqi aktların qüvvəyə minməsi və tətbiqi ilə bağlı problemlər* - müxtəlif dövlətlərarası birliklər tərəfindən qəbul edilmiş hüquqi aktların uzlaşdırılmasının mürəkkəbliyi səbəbindən onların effektiv şəkildə tətbiq edilməsində yaranan maneələr;

3. *beynəlxalq hüquqi aktlarla milli qanunvericilik arasında yaranan kolliziyalar* – qəbul edilmiş beynəlxalq hüquqi normaların ayrı-ayrı dövlətlərin milli qanunvericiliyi ilə toqquşması, bəzi ölkələrin hüquq sistemlərinin rəqəmsallaşmanın tənzimlənməsinə dair yeni yanaşmaları qəbul etməyə hazır olmaması və ya əksinə, bəzi dövlətlərin milli qanunvericiliyinin beynəlxalq hüquqi tənzimləməni qabaqlaması nəticəsində meydana çıxan uyğunsuzluqlar [16, s.287-292].

Hazırda kibermәkan beynəlxalq münasibətlərin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Texnologiyaların çoxluğu müxtəlif ölkələrdən olan insanları bir-birinə yaxınlaşdırmağa, yeni üfüqlər açmağa, həm dövlətlər, həm də qeyri-dövlət subyektləri arasında əməkdaşlıq üçün yeni imkanlar yaratmağa qadirdir. Hazırda dövlətlərin fəaliyyəti İT-strukturlarının işləməsindən asılıdır. Həmin strukturlar isə yeni həssaslıqların yaranmasına səbəb olur. Rəqəmsal mühitdə həm dövlət, həm də qeyri-dövlət subyektləri tərəfindən həyata keçirilən əməliyyatlar beynəlxalq sabitliyə təhlükə yarada bilir. Buna görə də beynəlxalq hüquq informasiya texnologiyalarının beynəlxalq kontekstdə istifadəsi ilə bağlı imkan və risklərin tənzimlənməsində həlledici əhəmiyyətə malikdir [19,s.85-102].

Texnologiyalar yalnız geniş miqyasda yayılaraq istifadə edildiyi halda qlobal inkişaf amili kimi öz potensialını reallaşdırır. Bu isə onların beynəlxalq ötürülməsi vasitəsilə təmin edilir. Texnologiyaların beynəlxalq ötürülməsinin müxtəlif növləri (kommersiya və qeyri-kommersiya ötürülməsi) və formaları (avadanlıqların ixracı və idxalı, lisenziyaların satışı, patentlərin güzəşti, məxfi texnoloji məlumatların və nou-hauyun ötürülməsi, texniki sahədə kommersiya xidmətlərinin göstərilməsi və s.) mürəkkəb hüquq normaları və prinsipləri sistemi əsasında tənzimlənir. Hazırda texnologiyaların beynəlxalq ötürülməsinin hüquqi tənzimlənməsi sahəsində milli və beynəlxalq hüququn sıx qarşılıqlı əlaqədə olduğu müşahidə edilir [22,s.194-216]. Texnologiyaların ötürülməsi müasir beynəlxalq hüququn subyektlərinin daim diqqət mərkəzində olan məsələlərdən biridir və beynəlxalq hüquq elminin mühüm tədqiqat istiqamətlərinə daxildir. Bu sahədə münasibətlərin və onların beynəlxalq hüquqi tənzimlənməsinin sistemli elmi araşdırılması XX əsrin 60-cı illərindən etibarən formalaşmağa başlamışdır.

Texnologiyaların beynəlxalq ötürülməsi ilə bağlı münasibətlər müasir beynəlxalq hüququn müstəqil tənzimləmə predmetlərindən birini təşkil edir. Hazırkı mərhələdə müxtəlif növ texnologiyaların beynəlxalq ötürülməsini tənzimləyən norma və prinsipləri özündə əks etdirən beynəlxalq hüquq mənbələrinin dairəsi davamlı olaraq genişlənir. Bu tendensiya texnologiyaların qlobal dövriyyəsinin hüquqi təminatının getdikcə daha sistemli və kompleks xarakter aldığını göstərir.

Yeni kosmik, dəniz, nüvə, informasiya-kommunikasiya və digər texnologiyaların beynəlxalq ötürülməsi ilə bağlı münasibətlərin dinamik inkişafı müxtəlif hüquqi qüvvəyə və tənzimetmə predmetinə malik norma və tövsiyələrin formalaşmasına səbəb olmuşdur. Qeyd edilməlidir ki, hazırda texnologiyaların beynəlxalq ötürülməsi

müxtəlif beynəlxalq hüquqi rejimlər çərçivəsində həyata keçirilir. Bu isə onu göstərir ki, texnologiyaların beynəlxalq hüquqi tənzimlənməsi ötürülən texnologiyanın növündən asılı olaraq diferensial xarakter daşıyır [10; 21,s.1448-1461].

İndiki dövrdə aydın görünür ki, rəqəmsal texnologiyaların sürətli inkişafı və bunun beynəlxalq münasibətlər sistemində yaratdığı fundamental dəyişikliklər beynəlxalq hüquq qarşısında yeni tələblər formalaşdırmışdır. Bu baxımdan, informasiya cəmiyyətinin inkişaf səviyyəsinə uyğun gələn, rəqəmsal mühitdə yaranan yeni münasibətləri səmərəli tənzimləyə bilən hüquqi normaların hazırlanması beynəlxalq hüququn əsas vəzifələrindən birinə çevrilmişdir.

Qeyri-dövlət subyektləri də beynəlxalq hüququn kiberməkanda idarəetmə və fəaliyyət münasibətlərinə necə tətbiq olunması məsələlərinə xüsusi göstərirlər. Məsələn, "Microsoft" şirkətinin prezidenti B.Smit dövlətlərin kiberməkanda davranış qaydalarını müəyyən etmək məqsədilə yeni "Rəqəmsal Cenevrə Konvensiyası"nın qəbul edilməsini təklifini irəli sürmüşdür.

Kiberməkanda beynəlxalq hüququn tətbiqinin mümkünlüyü ilə bağlı rəsmi mövqe ifadə edən dövlətlər arasında bu sahədə vahid hüquqi yanaşma formalaşmamışdır. Əsas fikir ayrılığı beynəlxalq hüququn ayrı-ayrı norma və institutlarının kiberməkana tam şəkildə şamil edilib-edilməməsi, yaxud onların bu mühitdə tətbiq imkanlarının məhdudluğu ilə bağlıdır.

Müasir dövrdə texnologiyaların əhəmiyyətli hissəsi insan sağlamlığı, ətraf mühit və beynəlxalq təhlükəsizlik baxımından müəyyən risklər yarada bilir. Lakin bu risklərin mövcudluğu texnologiyaların inkişafından və ya onların tətbiqindən imtina edilməsi üçün yaratmır. Əksinə, belə şəraitdə texnologiyaların hazırlanması, ötürülməsi və istifadəsi üzərində beynəlxalq hüquqi nəzarət mexanizmlərinin gücləndirilməsi, habelə onların tətbiqi nəticəsində yarana biləcək mənfi təsirlərə görə beynəlxalq hüquqi məsuliyyət institutunun təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu yanaşma texnologiyaların faydalı potensialının qorunması ilə yanaşı, onların insan və ətraf mühit üçün doğura biləcəyi zərərli nəticələrin minimuma endirilməsinə xidmət edir.

Beləliklə, müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı fonunda rəqəmsal hüquq normalarının öyrənilməsi beynəlxalq səviyyədə ən aktual problemlərdən biri kimi çıxış edir. Rəqəmsal texnologiyaların intensiv inkişafı beynəlxalq hüququn normativ bazasının rəqəmsal mühitdə formalaşan yeni ictimai münasibətlərin xüsusiyyətlərinə uyğunlaşdırılmasını və hüquqi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsini obyektiv zərurətə çevirir.

Nəticə

Beləliklə, bu məqalə çərçivəsində aparılmış təhlilləri və irəli sürülmüş fikirləri aşağıdakı kimi ümumiləşdirmək olar.

1. Rəqəmsal texnologiyaların inkişafı yalnız texniki yenilənmə ilə məhdudlaşmır, cəmiyyətin fəaliyyət formalarını və ictimai münasibətlər sistemini transformasiya edən kompleks proses kimi çıxış edir. Rəqəmsallaşmanın sürəti və geniş əhatə dairəsi iqtisadiyyat, sosial həyat, dövlət idarəçiliyi və hüquq sahələrində yeni imkanlarla yanaşı, yeni hüquqi tənzimləmə ehtiyaclarının da yaranmasına səbəb olmuşdur.

2. Müasir mərhələdə texnologiya və hüquq arasında qarşılıqlı təsir mövcuddur. Texnoloji yeniliklər hüquqi tənzimləmənin predmetinə, formalarına və vasitələrinə təsir göstərdiyi halda, hüquq da texnologiyaların tətbiqini müəyyən hüquqi çərçivə və davranış qaydaları ilə məhdudlaşdırır. Bu qarşılıqlı təsir rəqəmsal mühitdə hüququn funksiyalarına yeni yanaşmanı zəruri edir.

3. Münasibətlərin rəqəmsal mühitə keçməsi onların hüquqi mahiyyətini hər zaman dəyişdirməsə də, yaranması, həyata keçirilməsi, sübut edilməsi və hüquqi məsuliyyətin müəyyənləşdirilməsi baxımından yeni xüsusiyyətlər meydana çıxarır. Bu baxımdan rəqəmsallaşmanın hüquqa

təsiri həm yeni hüquq münasibətlərinin formalaşmasında, həm də mövcud münasibətlərin həyata keçirilmə üsullarının dəyişməsində özünü göstərir.

4. Rəqəmsallaşma hüququn yalnız tənzimləmə predmetinə deyil, hüquq düşüncəsinə və hüquqi tənzimləmə metodlarına da təsir edir. Rəqəmsal mühitdə münasibətlərin mürəkkəbləşməsi hüquqi yanaşmaların texnoloji dəyişiklikləri nəzərə alacaq şəkildə yenilənməsini və müxtəlif hüquq sahələrinin qarşılıqlı əlaqəsinin gücləndirilməsini tələb edir.

5. "Rəqəmsal hüquq" ayrıca və müstəqil hüquq sahəsi deyil, rəqəmsal element daşıyan ictimai münasibətlərin tənzimlənməsinə yönəlmiş kompleks hüquqi tənzimləmə istiqaməti kimi qiymətləndirilə bilər. Bu münasibətlərin çoxşaxəli xarakteri mülki, inzibati, cinayət, əmək, vergi, beynəlxalq və digər hüquq sahələrinin normalarının qarşılıqlı tətbiqini şərtləndirir.

6. Rəqəmsal mühitdə hüquqi tənzimləmə texnologiyaların konkret növlərinə deyil, onların doğurduğu hüquqi nəticələrə və risklərə yönəlməli, texnoloji inkişafın təhlükəsiz və məsuliyyətli şəkildə həyata keçirilməsinə şərait yaratmalıdır. Bu məqsədlə milli və beynəlxalq səviyyədə fundamental hüquq və azadlıqları, məsuliyyət meyarlarını və ümumi hüquqi prinsipləri təmin edən çevik, davamlı və texnoloji baxımdan neytral tənzimləmə mexanizmlərinin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır.

7. Rəqəmsal mühitdə insan hüquqlarının təmin edilməsi iki qarşılıqlı istiqaməti əhatə edir: bir tərəfdən, rəqəmsal texnologiyalar hüquqlardan istifadənin yeni imkanlarını yaradır, digər tərəfdən isə onların yaratdığı risklər hüquqların müdafiəsi üçün əlavə hüquqi təminatların formalaşdırılmasını tələb edir.

8. Rəqəmsallaşma ənənəvi insan hüquqlarının yalnız məzmununa deyil, onların həyata keçirilməsi və müdafiəsi formalarına da təsir göstərərək rəqəmsal hüquqlar anlayışının formalaşmasına səbəb olmuşdur. Rəqəmsal hüquqların hüquqi təbiəti ilə bağlı vahid elmi yanaşma mövcud deyil: onlar həm fundamental hüquqların rəqəmsal mühitdə təzahürü, həm də rəqəmsallaşmanın yaratdığı yeni ictimai münasibətlərdən irəli gələn müstəqil hüquqi kateqoriya kimi qiymətləndirilir. Bu hüquqlar internetə çıxış, informasiya əldə etmək, anonimlik, ifadə azadlığı, şəxsi məlumatların qorunması və unudulmaq hüququ kimi istiqamətləri əhatə edir. Rəqəmsal hüquqların dinamik xarakteri onların hüquqi təminatlarının daim yenilənməsini şərtləndirir. BMT sistemi çərçivəsində rəqəmsal hüquqlar üzrə ixtisaslaşmış institusional mexanizmlərin yaradılması beynəlxalq hüququn gələcək inkişaf istiqamətlərindən biri kimi qiymətləndirilə bilər.

9. Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı beynəlxalq hüququn normativ bazasının rəqəmsal mühitdə formalaşan münasibətlərin xüsusiyyətlərinə uyğunlaşdırılmasını zəruri edir. Kiberməkanda beynəlxalq hüququn tətbiqi üzrə dövlətlər arasında vahid hüquqi yanaşmanın formalaşmaması yeni universal normaların işlənib hazırlanmasını və mövcud beynəlxalq hüquqi mexanizmlərin dəqiqləşdirilməsini tələb edir. Rəqəmsal texnologiyaların yaratdığı potensial risklər onların inkişafından imtina üçün əsas deyil, əksinə, texnologiyaların hazırlanması, ötürülməsi və istifadəsinə beynəlxalq hüquqi nəzarətin gücləndirilməsini şərtləndirir. Rəqəmsal texnoloji fəaliyyətin insan, ətraf mühit və beynəlxalq təhlükəsizlik üçün mümkün mənfi nəticələrinə görə beynəlxalq hüquqi məsuliyyət mexanizmlərinin təkmilləşdirilməsi rəqəmsal inkişafın təhlükəsiz və dayanıqlı təminatının mühüm amilidir.

Ədəbiyyat siyahısı

1. Əliyev, Ə. E. (2024). Rəqəmsal cəmiyyətdə əqli mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsinə dair məsələlər. *Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası*, (3), 19–28.
2. Əliyev, Ə. Q., və Əbdülhüseynova, X. (2025). Rəqəmsal transformasiyaların yaşıl iqtisadiyyatın formalaşmasına və inkişafına təsir aspektləri. *Yaşıl və rəqəmsal transformasiyalar: Qarşılıqlı təsirləri, pozitiv və neqativ aspektləri. Məqalələr toplusu* (s. 257–262).
3. İmanov, T. İ. (2025). 4.0 tipli sənaye texnologiyası və milli texnoloji təşəbbüslərin dəstəklənməsi. *Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri*, (24), 61–71.
4. Qurbanova, K. Ş. (2025). Rəqəmsal və yaşıl texnologiyaların konvergensiyası: Yeni peşələr və kompetensiyalar. *Yaşıl və rəqəmsal transformasiyalar: Qarşılıqlı təsirləri, pozitiv və neqativ aspektləri*. *Məqalələr toplusu* (s. 50–55).
5. Musayev, E. (2022). Rəqəmsal hüququn anlayışı və tətbiqi məsələləri. *Azərbaycan Hüquq Jurnalı*, (3), 41–61.
6. Nəsirov, E. , Xəlilov, K. (2026). Rəqəmsal mühitdə konstitusion hüquqların təmin edilməsində kibertəhlükəsizlik tədbirlərinin rolu. *Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan Respublikasının dayanıqlı inkişaf strategiyası" mövzusunda respublika elmi-praktik konfransının materialları* (Cild 1, s. 12–18).
7. Давыдов, Р. Х. (2021). Некоторые аспекты правового регулирования цифровых прав в зарубежных странах. *Экономика. Право. Общество*, *3* (27), 71–75.
8. Зорькин, В. Д. (2018). Право в цифровом мире. Размышление на полях Петербургского международного юридического форума. *Российская газета*, (7578). https://rg.ru/2018/05/29/zorkin-zadacha-gosudarstva-priznavat-i-zashchishchat-cifrovye-prava-grazhdan.html
9. Карташкин, В. А. (2022). Цифровые права человека: Международно-правовое и социальное измерения. *Вестник Российского университета дружбы народов. Серия: Социология*, 22 (4), 949–962.
10. Копылов, М. Н. (2007). *Введение в международное экологическое право*. РУДН.
11. Кравчук, Н. В. (2016). Право на забвение: Интернет и проблемы прав человека. *Россия и современный мир*, (2), 231–238.
12. Морозов, А. В. (2019). Проблемы правового регулирования цифровых технологий в России и за рубежом. *Вестник Университета имени О. Е. Кутафина (МГЮА)*, (12), 170–172.
13. Пащенко, И. Ю. (2022). Цифровые правоотношения как новое явление для системы правового регулирования. *Труды по интеллектуальной собственности*, *43* (4), 21–25.
14. Сайдахметова, Д. Х. (2020). Цифровая технология. *Academic Research in Educational Sciences*, (4), 85–90.
15. Санникова, Л. В., и Харитонова, Ю. С. (2018). Правовая сущность новых цифровых активов. *Закон*, (9), 86–89.
16. Телятицкая, Т. В. (2022). Взаимосвязь международного и национального законодательства в правовом регулировании цифровизации. В *Информационная безопасность личности и государства в современном международном праве: Материалы круглого стола кафедры государственного управления юридического факультета Белорусского государственного университета* (с. 287–292). Белорусский государственный университет.
17. Тесленко, И. Б., Крылов, В. Е., Дигилина, О. Б., & др. (2023). *Цифровая экономика*. КОРУС.
18. Хабриева, Т. Я., и Черногор, Н. Н. (2018). *Право в условиях цифровой реальности. Журнал российского права, 1* (253), 85–102.
19. Химич, А. А. (2023). Международное право в условиях цифровизации. *Образование и право*, (4), 137–142.
20. Цифровые права в контексте норм международного права. (б. д.). *Ассоциация юристов России*. https://alrf.ru/articles/tsifrovye-prava-v-kontekste-aktualnykh-norm-mezhdunarodnogo-prava/
21. Шугуров, М. В. (2010). Международно-правовое регулирование трансфера технологий в целях сохранения и устойчивого использования биоразнообразия: Проблемы и решения. *Право и политика*, (8), 1448–1461.
22. Шугуров, М. В. (2012). Международно-правовое регулирование передачи технологий в условиях глобализации: Состояние и перспективы. *Московский журнал международного права*, (1), 194–216.
23. Coccoli, J. (2017). The challenges of new technologies in the implementation of human rights: An analysis of some critical issues in the digital era. *Peace Human Rights Governance, 1* (2), 219–250.
24. De Gregorio, G. (2022). *Digital constitutionalism in Europe: Reframing rights and powers in the algorithmic society*. Cambridge University Press.
25. United Nations Conference on Trade and Development. (2017). *Information economy report 2017: Digitalization, trade and development*. https://unctad.org/en/PublicationsLibrary/ier 2017_en.pdf

Агаев Фаиг Бахадур оглу,
докторант юридического факультета
Бакинского государственного университета

ОСОБЕННОСТИ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

РЕЗЮМЕ

В данной статье исследуются сущность цифровых технологий, выступающих одним из основных факторов трансформации современного общества, их влияние на правоотношения, а также особенности их правового регулирования. В исследовании прежде всего рассматриваются содержание цифровых технологий и их роль в социальном, экономическом и правовом развитии современного общества. Далее анализируются влияние цифровых технологий на право, трансформация правоотношений и изменяющаяся сущность права в условиях цифровизации. В этом контексте определяется содержание понятия «цифровое право», обосновываются необходимость и предназначение правового регулирования цифровых технологий. В статье далее исследуются вопросы обеспечения прав и свобод человека в цифровой среде и раскрывается сущность концепции «цифровых прав», сформировавшейся в современной теории права. Особое внимание уделяется новым возможностям, которые цифровая среда создаёт для реализации прав человека, а также возникающим в связи с этим правовым вызовам. В продолжение исследования анализируются особенности международно-правового регулирования в условиях стремительного развития цифровых технологий, сформировавшиеся в данной сфере подходы, возникающие проблемы, а также вопросы адаптации международного права к цифровой трансформации. В результате исследования обосновывается, что развитие цифровых технологий оказывает существенное влияние на содержание права, характер правоотношений и механизмы обеспечения прав человека, а данные изменения обусловливают необходимость формирования адекватных механизмов правового регулирования на национальном и международном уровнях.

Aghayev Faiq Bahadur,
Doctoral degree, Law faculty, Baku State University

FEATURES OF THE LEGAL REGULATION OF DIGITAL TECHNOLOGIES IN MODERN CONDITIONS

SUMMARY

The article examines the nature of digital technologies, which represent one of the main factors in the transformation of modern society, their impact on legal relations, and the specific features of their legal regulation. First, the study examines the content of digital technologies and their role in the social, economic, and legal development of modern society. Subsequently, the impact of digital technologies on law, the transformation of legal relations, and the changing nature of law in the context of digitalization are analyzed. In this context, the content of the concept of "digital law" is defined, and the necessity and purpose of the legal regulation of digital technologies are substantiated. Further, the article examines issues related to the protection of human rights and freedoms in the digital environment and explains the essence of the concept of "digital rights" that has emerged in modern legal theory. In particular, the new opportunities created by the digital environment for the realization of human rights and the legal challenges arising from it are examined. In the continuation of the research, the features of international legal regulation in the context of the rapid development of digital technologies, the approaches formed in this field, the problems that have arisen, and the issues of adapting international law to digital transformation are analyzed. As a result of the research, it is substantiated that the development of digital technologies has a significant impact on the content of law, the nature of legal relations, and the mechanisms for ensuring human rights, and that these changes necessitate the formation of adequate legal regulation mechanisms at the national and international levels.

Redaksiyaya daxilolma tarixi: 22.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 24.08. 2026
Çapa qəbul olunma tarixi: 29.08.2026